

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 206 (23.618)

*27 noyabr 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Culfa rayonunda yeni sosial obyektlər istifadəyə verilib

Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi sürətli sosial-iqtisadi inkişaf strategiyası Naxçıvanın Şərqə açılan qapısı olan Culfa rayonunu da əhatə etmişdir. Aparılan kompleks quruculuq işləri, yaradılan müasir infrastruktur, rahat iş və xidmət şəraiti yaranmasının 90 ili tamam olan Culfa rayonunda sakinlərin firavan yaşayışını təmin etmişdir. Bu il də rayonda kompleks tikinti-quruculuq işləri həyata keçirilib.

## Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün hərtərəfli xidmət şəraiti yaradılıb

Noyabrın 26-da Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni xidmət kompleksi istifadəyə verilmiş, avtomobillər təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri, general-leytenant Şamı Abdullayev Ali Məclisin Sədrinə raport vermişdir.

Məlumat verilmişdir ki, ikimərtəbəli inzibati bina, 4 qaraj, ehtiyat hissələri və təsərrüfat anbarları yenidən qurulmuşdur. Ərazidə 90 kubmetr həcmində yeraltı ehtiyat su anbarı, hündürlüyü 18 metr olan təlim qülləsi yerləşir. Yenidənqurmadan sonra şöbə 4 yanğınsöndürən və 1 xidməti avtomobil, yanğınsöndürən və xilasedicilər üçün 46 dəst xüsusi geyim forması ilə təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri, general-leytenant Şamı Abdullayev çıxış edərək demişdir: Muxtar respublikada iqtisadiyyatın əsas göstəriciləri üzrə müsbət dinamikanın qorunub saxlanılması, sosial-iqtisadi islahatların davam etdirilməsi, xüsusilə əhalinin rifahının qorunması



Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinə yeni iş və xidmət şəraiti yaradılmış, inzibati bina yenidən qurulmuş və yeni avtomobillər təqdim olunur. Həyata keçirilən işlər əhalinin və dövlətin dediyi kimi: ***"Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır"***. Bu fikirlər Fövqəladə Hallar Nazirliyinin əməkdaşları üçün şüar olmalı, onların gündəlik fəaliyyət istiqamətinə çevrilməlidir.

fəaliyyətinin nəticəsidir. Muxtar respublikada Fövqəladə Hallar Nazirliyi yaranandan sonra bu sahədə hər il yeni infrastruktur yaradılmışdır. Bu gün sonuncu Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsidir ki, Culfa rayonunda müasir standartlara uyğun tikilərək şəxsi heyətin istifadəsinə verilir. Bu işləri həyata keçirmək üçün dövlət vəsaiti sərf olunub. Ona görə də kollektiv qarşıya qoyulan vəzifələri layiqincə icra etməlidir. Vəzifələrin icrası isə sabitlik, insanların rahat yaşayışı və ölkənin inkişafıdır.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları onlar üçün yaradılan şəraitdən ötən illər ərzində düzgün istifadə ediblər. Hadisələrə vaxtında müdaxilə olunub, qabaqlayıcı tədbirlər görülüb. Xüsusilə qış aylarında hadisələr daha çox baş verir. Muxtar respublikanın ərazisi tamamilə qazlaşdırılıb. Bəzən fürsətçilər başqa ölkələrdən ucuz, standartlara uyğun olmayan sobalar gətirərək əhaliyə satırlar. Bunların qarşısı vaxtında alınmış, yaxşı nəticə vermişdir. Son illər bu sahədə baş verən hadisələr tamamilə aradan qaldırılmışdır. Bütün bunlar isə xidmətin düzgün təşkili nəticəsində olmuşdur. Həmçinin





və pandemiya ilə mübarizə sahəsində ardıcıl tədbirlər görülmüşdür. Bu ilin ötən dövründə muxtar respublikada 25 milyon kvadratmetrdən artıq sahədə dezinfeksiya işləri aparılmışdır. Ötən dövrdə Fövqəladə Hallar Nazirliyinin struktur qurumlarının maddi-texniki bazası gücləndirilmiş, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşdırılmış, yeni texnologiyaların tətbiqi iş prosesini təkmilləşdirmişdir. Ali Məclis Sədrinin qayğısı nəticəsində 2008-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan şəhər şöbəsi, 2009-2014-cü illərdə Kəngərli, Şahbuz, Ordubad, Şərur, Babək və Sədərək, cari ildə isə Culfa rayon yanğın təhlükəsizliyi şöbələri üçün inzibati binalar və texniki qarajlar tikilmişdir. Şəxsi heyətin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılmış, 2017-ci ildə Naxçıvan şəhərində zabit-gizir ailələri üçün 7 mərtəbəli, 48 mənzilli yaşayış binası tikilib istifadəyə verilmişdir. Şamı Abdullayev göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin Dövlət Yanğın Nəzarəti Bölməsinin rəisi, daxili xidmət kapitanı Mətin Muradlı yaradılan şəraitə görə şəxsi heyət adından minnətdarlıq edərək demişdir ki, bundan sonra da xidmətimizi günün tələblərinə uyğun təşkil edəcək və üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacağıq.

Naxçıvan Muxtar Respublikası Ali əmlakını yanğından və digər hadisələrdən vaxtında qorumağa və qarşısını almağa xidmət edir. Culfa rayonu bir şəhər, 22 kənddən ibarətdir. Rayonda 47 mindən artıq əhali yaşayır, 12 minə yaxın təsərrüfat vardır.



270-dən çox sahibkarlıq subyekti, yanacaqdoldurma məntəqələri, neft məhsulları anbarı mövcuddur. Görülən tədbirlər imkan verəcək ki, həm dövlətə, həm də əhaliyə dəyə biləcək ziyanın qarşısı vaxtında alınsın. Ümummilli liderimiz Heydər Əliyevin də

"Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün yaradılan şərait imkan verir ki, kollektiv vəzifələrini layiqincə yerinə yetirsin", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, əsas vəzifə dövlət və şəxsi əmlakın qorunmasıdır. O yerdə dövlət möhkəmlənir, şəxsi təsərrüfatlar inkişaf edir ki, orada dövlət əmlakı da, şəxsi əmlak da qorunur və insanlara dəyə biləcək ziyanın qarşısı vaxtında alınır. Ötən illərdə ərazidə ciddi problemlər olmayıb. Bu da şöbənin

Fövqəladə Hallar Nazirliyinin kollektivi dünyanın qarşısında problem kimi dayanan koronavirus epidemiyasına qarşı mübarizədə fəal iştirak etmişlər. Muxtar respublika bu gün Azərbaycanda epidemiyanın yayılmasına görə ən aşağı göstəricisi olan yerdədir. Buna səbəb isə muxtar respublikada Fövqəladə Hallar Nazirliyinin və Gigiyena və Epidemiologiya Mərkəzinin kollektivlərinin birgə səyi nəticəsində davamlı aparılan dezinfeksiya tədbirləridir.

Ali Məclisin Sədri Fövqəladə Hallar Nazirliyinin kollektivinə təşəkkür etmiş, onlara fəaliyyətlərində uğurlar arzulamış, yaradılan şəraitdən lazımi səviyyədə istifadə olunmasını tapşırmışdır.

Sonra yeni avtomobillərə baxış olmuşdur.

Bildirilmişdir ki, Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinə "İVECO" və "Kamaz" markalı 4 müasir yanğınsöndürmə avtomobili, "Niva" markalı əməliyyat minik maşını və "Zil-131" markalı avtomobilin bazasında yığılmış 30 metr uzunluğunda avtopilləkən təqdim olunmuşdur. Avtopilləkən hündür binalarda yanğınsöndürmə və xilasetmə tədbirlərini həyata keçirmək üçün nəzərdə tutulmuşdur.

Ali Məclisin Sədri könüllü yanğınsöndürmə dəstələrinin yaradılması və kursların təşkilinin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

*Ardı 2-ci səhifədə*

# Culfa Rayon Təhsil Şöbəsi və məktəbdənkənar təhsil müəssisələri yeni binada fəaliyyət göstərəcək





Ümummilli liderimiz Heydər Əliyev demişdir: *“Müstəqil dövlətdə yaşayan hər bir gənc birinci növbədə yaxşı təhsil almalı, vətənpərvərlik əhval-ruhiyyəsi ilə tərbiyə olunmalıdır”*. Muxtar respublikada bütün sahələr kimi, təhsil də qayğı ilə əhatə olunmuşdur. Bunun nəticəsidir ki, ötən illərdə 200-dən çox təhsil müəssisəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Təhsil müəssisələrində elektron təhsilin təşkili, elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin yaradılması, nümunəvi dərslərin keçirilməsi, innovasiyaların tətbiqi şagirdlərin biliklərinin artırılmasında, vətənpərvərlik və milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyəsində mühüm rol oynayır.



Noyabrın 26-da Culfa Rayon Təhsil Şöbəsinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün Təhsil Şöbəsinin inzibati binası istifadəyə verilir. Burada həm də məktəbdənkənar təhsil müəssisələri fəaliyyət göstərəcəkdir. Şəraitin yaxşılaşdırılması işə münasibətin, onun keyfiyyətinin və nəticəsinin yaxşılaşması deməkdir. Culfa Rayon Təhsil Şöbəsinin tabeliyində 25 tam orta məktəb, 5 məktəbdənkənar təhsil müəssisəsi vardır. Rayon məktəblərində 5 min 400-dən artıq şagird təhsil alır, 930-dan artıq müəllim fəaliyyət göstərir. Rayon Təhsil Şöbəsinin 2019-2020-ci tədris ilindəki fəaliyyəti onu deməyə əsas verir ki, işlər düzgün qurulmuşdur. Belə ki, məktəbi bitirən 283 şagirddən 126-sı ali məktəblərə, 27-si orta ixtisas məktəblərinə qəbul olunmuş, onlardan 22-si 500-700 intervalında bal toplamışlar. Bu nailiyyətlərin qazanılmasında Təhsil Şöbəsinin də əməyi vardır. Rayonun təhsil müəssisələrində vətənpərvərlik işinin düzgün təşkilinin nəticəsidir ki, 28 şagird Heydər Əliyev adına Hərbi Liseyə, dəqiq elmlərə marağın artırılmasının nəticəsidir ki, 9 şagird Şərur Rayon Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul olunmuşdur. Yaradılan müasir iş şəraiti imkan verəcəkdir ki, məktəblərə nəzarət daha da gücləndirilsin, tədrisin vəziyyəti yaxşı təhlil edilsin, müzakirələr aparılsın, çatışmazlıqlar aradan qaldırılsın, rayonun təhsil nailiyyətləri daha da artırılsın.

Ali Məclisin Sədri demişdir: Təhsil Şöbəsinin qarşısında duran əsas vəzifə məktəblərdə tədrisin səviyyəsinin yaxşılaşdırılması, müəllimlərin dərsə davamiyyətinə, bütün fənlər üzrə dərslərin yeni texnologiyaların tətbiqi ilə tədrisinə nəzarət etməkdir. Bu gün zamanın tələbi ondan ibarətdir ki, tədris müasir, yeni texnologiyalar tətbiq olunmaqla təşkil edilsin. Bunun üçün mütləq yaradılmış kompüter siniflərindən, elektron lövhələrdən, laboratoriyalardan, şahmat siniflərindən və STEAM kabinələrindən istifadə olunmalıdır. Müasir tədrisin tələbləri ondan ibarətdir ki, tədrisə müəllim və şagird yaradıcı yanaşmalıdır. Yaradıcı aparılan tədris nəticəli olur. Məktəblərdə müasir şərait ona görə yaradılır ki, müəllimlər tədrisin yaradıcı tətbiqinə nail ola bilsinlər. Bu işlərə yeni başlanılan dövrdə problemlər mövcud idi. Elektron lövhəli siniflərdən düzgün istifadə olunmurdu. Artıq məktəblərdə bu problemlər aradan qaldırılıb. Dəqiq fənləri tədris edən müəllimlər üçün Təhsil Nazirliyi tərəfindən hər il kurslar təşkil edilir. STEAM kabinələri də bu yeniliklərə əlavə olunur. Bu yeni metod, əsasən, incəsənətlə dəqiq elmlərin birləşməsi nəticəsində formalaşan sistemdir. Bu həm müəllimdən, həm də şagirddən tamamilə yaradıcı iş tələb edir. Ona görə də qərara alınıb ki, bu tədris ilindən etibarən muxtar respublikanın məktəblərində və məktəbdənkənar təhsil müəssisələrində STEAM kabinələrinin və robotexnika dərnəklərinin qurulması davam etdirilsin. Bununla yanaşı, milli dəyərlərimizi özündə yaşadan dərnəklərin fəaliyyəti də davam etdiriləcəkdir.

Ali Məclisin Sədri demişdir: Təhsil Şöbəsinin inzibati binasında 3 məktəbdənkənar təhsil müəssisəsi üçün lazımi şərait yaradılmışdır. Burada həm milli, həm də innovativ dərnəklər birlikdə fəaliyyət göstərəcək. Məktəbdəki tədrisin səviyyəsi məktəbdənkənar müəssisələrin bilavasitə işindən asılıdır. Yəni şagirdin asudə vaxtı nə qədər səmərəli keçərsə, onun dərs qavrama qabiliyyəti bir o qədər rahat olar. Nəticələrə əsasən demək olar ki, Culfa rayonunda bu işlərə nail olunub. Yadda saxlamaq lazımdır ki, müasir dövrümüzdə inkişaf etmiş ölkələrdə ən yaxşı mühəndislər həmin dərnəklərdə formalaşırlar. Ona görə də tətbiq olunan bu yeniliklərin istifadəsinə nəzarət olunmalıdır. Ölkənin gələcəyinin hazırlanmasına hər kəs məsuliyyət daşıyır. Bunun üçün də işə məsuliyyətlə yanaşılmalı və tələbkarlıq artırılmalıdır.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir: Muxtar respublika təhsili özünün inkişaf dövrünü yaşayır. Təhsilin bütün pillələri üçün zəruri infrastruktur formalaşdırılır, yeni məktəb binaları tikilir, təhsil müəssisələrinin maddi-tədris bazası möhkəmləndirilir. Yaradılan müasir şərait təhsilin keyfiyyətinin yaxşılaşmasına, şagirdlərin yüksək səviyyədə bilik almalarına, dünyagörüşlü və vətənpərvər formalaşmalarına, eləcə də pedaqoji heyətdə iş əzminin yüksəlməsinə geniş imkanlar açmışdır. Aparılan ardıcıl tədbirlər yalnız məktəb tikintisi ilə yekunlaşmamış, eyni zamanda şəhər və rayon təhsil şöbələri və məktəbdənkənar təhsil müəssisələri üçün də binalar tikilib istifadəyə verilir. Culfa rayonunun ümumtəhsil məktəblərində 595 kompüter, 78 elektron lövhə quraşdırılmış, kitabxanalar 87 mindən çox latın qrafikalı bədii ədəbiyyat və 97 minə yaxın dərsliklə təmin olunmuş, bütün təhsil müəssisələrində idman zalları və açıq idman qurğuları, eyni zamanda istilik sistemi quraşdırılmışdır. Rəhman Məmmədov muxtar respublikada təhsilin hərtərəfli inkişafına, innovativ təlim metodlarının tətbiqinə göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmişdir.




Dərnək rəhbəri Türkanə Hüseynova minnətdarlıq edərək demişdir: “Ali Məclis Sədrinin qayğısı ilə Culfa Rayon Təhsil Şöbəsi və məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti üçün müasir iş şəraiti yaradılmışdır. Şagirdlərin milli dəyərlər ruhunda tərbiyə olunması, təhsilli, intellektli və sağlam yetişmələri diqqətdə saxlanılır. Bu dərnəklər milli-mənəvi dəyərlərimizin qorunmasına, uşaqların intellektual və fiziki inkişafına mühüm töhfələr verəcək, şagirdlər innovativ dərnəklərdə bacarıqlarını nümayiş etdirə və peşə vərdişlərini üzə çıxara biləcəklər. Yaradılan şərait və göstərilən dövlət qayğısı müəllimlərdən böyük məsuliyyət tələb edir. Kollektivimiz bu məsuliyyəti dərindən dərk edir. Əmin edirik ki, yaradılanları qoruyacaq, onlardan səmərəli istifadə edərək gənc nəslin təlim-tərbiyəsində səylə çalışacağıq”.

Ali Məclisinin Sədri binada yaradılan şərait və dərnəklərin fəaliyyəti ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, mərkəzlər üçün binanın 1-ci mərtəbəsində 124 yerlik 11 sinif otağı ayrılmışdır. Binanın ikinci mərtəbəsində Culfa Rayon Təhsil Şöbəsi üçün 10 iş otağı, 50 yerlik iclas zalı və texniki otaq ayrılmış, otaqlarda 9 kompüter quraşdırılmışdır. Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində rəqs, rəsm, memarlıq-dizayn, qum sənəti, xalçaçılıq, Texniki Yaradıcılıq Mərkəzində robotexnika və STEAM, mental-aritmetik, bijuteriya, ağac üzərində oyma, ağac üzərində yandırma, Turist-Diyarşünaslıq Mərkəzində isə heykəltəraşlıq, dulusçuluq, bədii tikmə və toxuculuq dərnəkləri yaradılmışdır.

Robotexnika və STEAM dərnəyi üçün 9 kompüter, rəngli printer, 3D printer, 10 robot, mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları alınmış, elektron lövhə quraşdırılmışdır. Mental-aritmetik dərnəyi üçün elektron lövhə quraşdırılmış, dərs proqramı, hesablama alətləri alınmış, ağac üzərində yandırma dərnəyi üçün 10 elektrikli yandırma aləti, rəqs dərnəyi üçün 20 dəst geyim, rəsm dərnəyi üçün 15 molbert, memarlıq-dizayn dərnəyi üçün 7 kompüter, çertyoj lövhəsi, qum sənəti dərnəyi üçün 5 elektrikli qum masası, xalçaçılıq dərnəyi üçün 5 hana, heykəltəraşlıq və dulusçuluq dərnəyi üçün 12 dəzgah, eləcə də digər zəruri ləvazimatlar alınmışdır.

Robotexnika və STEAM dərnəklərində şagirdlərin dəqiqlik, analitik düşünmə, problem həlletmə, qərar vermə, komanda ilə işləmək bacarıqları formalaşacaq, həmçinin təhsil müəssisələrində əldə etdikləri bilikləri real tətbiqetmə imkanı qazanacaqlar. Yeni dərnəklər yaradılarkən uşaqların yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması da nəzərə alınmışdır. Rəsm, qum sənəti, dulusçuluq, heykəltəraşlıq, bijuteriya, ağac üzərində yandırma, ağac üzərində oyma, bədii tikmə, toxuculuq və xalçaçılıq dərnəkləri xalq yaradıcılığımızın və dekorativ tətbiqi sənət nümunələrimizin sirlərini gənc nəslə öyrətmək və bunları yaşatmaq baxımından mühüm əhəmiyyət daşıyır.

Ali Məclisin Sədri mental-aritmetik dərnəyi üzvlərinin vətənpərvərlik mövzusunda şeirləri bədii qiraət etməklə hesablama əməliyyatı aparmalarını izləmişdir.

Dərnək rəhbərlərindən Aidə İbrahimova, Sveta Kərimova, Məhluqə Rzayeva və Fuad Babayev şagirdlərin intellektual dünyagörüşlərinin formalaşmasında tətbiq olunan dərnəklərin rolunu yüksək qiymətləndirərək minnətdarlıq etmişlər.

Ali Məclisin Sədri yaradılan şəraitdən istifadə etməklə təhsilin səviyyəsinin yüksəldilməsi, qarşıdakı illərdə innovativ dərnəklərdə yeni metodları mənimsəyən şagirdlərin əl işlərindən ibarət sərgilərin keçirilməsi, STEAM tədris metodu ilə bağlı ədəbiyyatların tərcümə olunaraq təhsil ocaqlarına paylanması barədə tapşırıqlar vermişdir.

Binada istilik sistemi quraşdırılmış, həyətdə abadlıq işləri aparılmış, yaşıllıq sahəsi salınmış, müasir suvarma və işıqlandırma sistemi çəkilmişdir.



*Ardı 3-cü səhifədə*

## Culfa şəhərində 11 yaşayış binası yenidən qurulub





Noyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Culfa şəhərində yenidənqurmadan sonra istifadəyə verilən yaşayış binalarında görülən işlərlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 11 yaşayış binası yenidən qurulmuş, həyətləri abadlaşdırılmış, binaların ətrafındakı yollara asfalt qatı verilmişdir.

Culfa Rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev yaradılan şəraitə görə rayon sakinləri adından minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri yaradılanların qorunması ilə bağlı tapşırıq vermişdir.

## Culfa rayonunda Külək-Günəş Hibrid Elektrik Stansiyası tikilir

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Culfa rayonunun ərazisində tikilən 1 meqavatlıq Külək-Günəş Hibrid Elektrik Stansiyasında görülən işlərlə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev bildirmişdir ki, ərazidə günəş panellərinin yerləşdirilməsi üçün dəmir strukturlar quraşdırılmış, hazırda külək turbinlərinin bünövrəsi qoyulur. Həmçinin burada yarımstansiya tikilir.

Ali Məclisin Sədri ərazinin çəpərlənməsi, müşahidə kameralarının quraşdırılması, lazım olan materialların sifariş verilməsi, günəş su qızdırıcılarının kəndlərdə ardıcıl quraşdırılması ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvanda şəhidlərə böyük ehtiram göstərilir

### *Vətən yolunda şəhid olanlar əbədiyaşardırlar*





Şanlı tariximizə yazılan Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini və yenilməzliyini bir daha dünyaya nümayiş etdirdi. 30 il ərzində sülh yolu ilə geri alınmasına nail ola bilmədiyimiz torpaqlarımız ölkə başçısı, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli ordusu tərəfindən 44 gün ərzində düşməndən azad edildi. Çünki bu bizim haqq işimiz idi. Ümummilli liderimiz Heydər Əliyevin də dediyi kimi: ***“Tarix həmişə hər şeyi öz yerinə qoyur”.***

Haqq-ədalətin bərpasında Naxçıvan oğulları da əsl şücaət göstərmiş, ərazi bütövlüyümüz uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar.

Noyabrın 26-da Naxçıvan Beynəlxalq Hava Limanında şəhidlərimizin qarşılanma mərasimi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Dövlət və hökumət nümayəndələri, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin zabiti və şəhidlərin ailə üzvləri tədbirdə iştirak etmişlər.

Şəhid olan hərbi qulluqçularımız Muradlı İlkin İlyas oğlunun və Nadirli Ərtoğrul Hümbət oğlunun üçrəngli bayrağımıza bükülmüş cənazələri hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi.

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ali Məclisin Sədri şəhidlərin xatirəsinə ehtiramını bildirdi.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra “Qurani-Kərim”dən ayələr oxundu, şəhid cənazələrinin önündən keçildi.

Şəhidlərin cənazələri doğulduqları şəhər və kəndə yola salındı.

Ali Məclisin Sədri şəhidlərin ailə üzvləri ilə görüşərək onlara başsağlığı verdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ucalardan ucadır şəhidlik zirvəsi, şəhadət mərtəbəsi

*Ucalardan uca olan müqəddəs bir zirvə var: şəhidlik zirvəsi, şəhadət mərtəbəsi... Bu zirvəyə yüksəlmək hər kəsə nəsib olmur. Yalnız müqəddəs amal uğrunda – Vətən, torpaq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli igidlər yüksələ bilir bu mərtəbəyə, bu müqəddəs zirvəyə... Bu zirvəyə ucalan insanlar ölmürlər, əksinə, ölümləri ilə əbədilik qazanır, yenilməzlik simvolu olurlar. İllər ötüb, qərinələr dolaşsa da, onlar heç vaxt unudulmur, həmişə minnətdarlıq duyğuları ilə yada salınır, xatirələrinə dərin ehtiram bəslənilir.*

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün bərpa olunması ölkə vətəndaşlarının illərlə ürəyində yaşatdığı, uğrunda mübarizə apardığı ən müqəddəs arzusu olub. Bu məqsəd onları ruhlandırıb, birliyə səsləyib, mübarizəyə çağırıb. Mübarizə yolunda canından keçən, şəhidlik adlı zirvəni fəth edən belə oğul və qızlarımız xalqımızın qəhrəmanlıq tarixində yaşayır və yaşayacaq. Şəhidlərimizin keçdiyi ömür yolu, qəhrəmanlıqları, Vətənə olan sevgiləri dillər dastanı olacaq. Onların şərəfli ömür yolu torpaqlarımızın azadlığı uğrunda apardığımız mübarizəyə əbədi işıq saçacaq. Çünki müqəddəs amal uğrunda şəhid olmaqla əbədiyyətə qovuşan bütün igidlərimizin keçdikləri döyüş yolu davamçıları üçün bir örnəkdir, bir vətənpərvərlik məktəbidir.

Bildiyimiz kimi, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra dövlətimizə qarşı törədilən cinayətlərə, xüsusilə də erməni təcavüzü və terrorizminə qarşı xalqımız mübarizə aparıb, bu yolda didərgin düşüb, qaçqın statusu altında əzilib. Amma usanmadan, yorulmadan zəfər gününün gələcəyini gözləyib. II Qarabağ savaşında da Vətən və millət naminə düşmənə qarşı ölüm-dirim mübarizəsinə qalxdı bu millət. Bu mübarizədə igid oğullarımız şəhidlik məqamını fəth etdilər. Vətənimizin elə bir bölgəsi, elə bir kəndi tapılmaz ki, orada bir şəhid məzarı olmasın.

Azərbaycanı yadellilərin təcavüzkar basqınlarından igidliklə qoruyaraq öz qanları ilə tarixin şanlı səhifələrini yazanlar içərisində ərənlər yurdu Naxçıvanın ər oğulları da iştirak edib, şəhidlik məqamına yüksəliblər.

Şəhid olan hərbi qulluqçularımız Muradlı İlkin İlyas oğlu Şahbuz rayonu, Şahbuz şəhərində, Nadirli Ərtoğrul Hümbət oğlu Sədərək rayonu, Sədərək kəndindəki Şəhidlər xiyabanında son mənzilə yola salınıblar. Qəhrəman oğullarımızın dəfn mərasimlərində dövlət və ictimaiyyət nümayəndələri, Ali Məclisin deputatları, Əlahiddə Ümumqoşun Ordunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmiləri, minlərlə sakin iştirak etdi. Dəfn mərasimində hər kəs onların igidliklərindən danışdı. Bildirdilər ki, illərdir, həsrətlə gözlədiyimiz Qələbə xəbərini gətirən qəhrəmanlar, Siz ölmədiniz, bütün azərbaycanlıların ürəyində daim yaşayacaqsınız.

Şəhidlərimizin ruhuna dualar oxundu, yaylım atəşi açıldı, üçrəngli bayrağımız şəhidlərimizin doğmalarına əmanət edildi.

Yüzilliklər keçsə də şəhidlər həmişə xatırlanacaq, ürəklərdə əbədi olaraq şirin xatirələrə dönərək yaddaşlardan-yaddaşlara ötürüləcək, gələcək nəsillərə örnək olacaqlar.

**✍ Gülcamal TAHİROVA**

2020-ci il "Könüllülər ili"dir

# Könüllülük tarixi bir ənənə, müasir dövrün çağırışıdır

### *Azərbaycanda könüllülük: dünən və bu gün*

Son illər könüllülük bir anlayış kimi yeni olsa da, bu ifadə tariximiz və ənənələrimiz üçün yeni deyildir. Bu günün könüllülüyü xalqımızın tarixi qaynaqlarından süzülüb gələn bir ənənənin tərkib hissəsi olmaqla, milli-mənəvi dəyərimizdir. Könüllülük izləri xalqımızın qədim adət və ənənələrindədir. Xeyir və şər məclislərində könüllü olaraq müxtəlif vəzifələri tutan, ev tikən, körpü salan, torpaq şumlayan və əkən, iməciliklər keçirən, digər ictimai işlərdə heç bir fərdi mənfəət güdmədən bir-birinə dəstək olan insanların birliyindədir. Milli bayramımız Novruzda təndir başına yığışan, şəkərbura naxışlayan, oxlov açan analarımızın əməyində, bütöv kəndin, qohum və tanışların bayram görüşünə gəlməyində, müqəddəs Ramazan bayramında verilən ehsanlarda, dini ayinlərin icrasında, Qurban bayramında könüllü kəsilən qurbanların paylanılmasında, bir sözlə, xalqımızın məişətində, mədəniyyətində, əmək, zəhmət nəğmələrindədir könüllülük izləri. Bu izlər həm də nənələrimizin oxuduqları laylalarda, tapmacalarda, nağıllarda, babalarımızın dediyi atalar sözlərində, bayatılardadır.

Qədim "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanlarımızdakı həyat dərslərində, müqəddəs kitabımız "Qurani-Kərim"də buyurulanlarda, Mirzə Cəlil, Hüseyn Cavid, Məmməd Araz qələmində Vətənə, millətə sevgi hisslərində, Əcəmi Naxçıvani yaradıcılığındakı mədəni dəyərlərdə, Koroğlu, Babək, Cavad xan, Mübariz kimi oğullarımızın, Tomris, Sara xatın, Nigar, Həcər və onlarla cəsur qadınlarımızın timsalında qəhrəmanlıq, mərdanəlik, sadiqlik kimi nəcib insani keyfiyyətlərdə, müstəqillik və azadlıq mücadiləsindədir bu izlər. Böyük Azərbaycan xeyriyyəçilərinin, maarifçilərinin fəaliyyətində, məktəblərin açılmasında, qəzetlərin nəşrində, Vətənə sevgi və məhəbbətdədir. Könüllülüyü dəyərli edən bizim müdrik xalqımızdır. O xalq ki, əsrlərboyu müxtəlif sarsıntılara, repressiyalara məruz qalmasına baxmayaraq, milli kimliyini, şərəf və heysiyyətini, dilini, mədəniyyətini, milli ənənələrini qoruyub, saxlayıb. Azərbaycançılıq, multikulturalizm və tolerantlıq ideyalarının yaşadıldığı müasir, eyni zamanda milli-mənəvi dəyərlərə, milli köklərə bağlı sağlam cəmiyyətdə böyüyən indiki nəsil də məhz həmin ata-anaların övladlarıdır. Bu gün onlar hərəyə bir ağac əkərək ekologiyamıza fayda verməklə, ahıllara qayğı və ehtiram göstərməklə, bütün işlərdə, ən çətin məqamlarda birlik, bərabərlik nümayiş etdirməklə könüllülüyü dəyər kimi yaşadırlar.

### *"Könüllülər ili" xalqımızın tarixində milli birlik və bərabərlik ili kimi qalacaq*

Azərbaycan xalqı böyük xalqdır, vətənpərvər, əzmkar xalqdır. Xalqımızda milli təəssübkeşlik, Vətənə bağlılıq hissləri elə bu xalqın böyük oğlu, ulu öndərimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə daha da gücləndi. O, müstəqil Azərbaycanın qurucusu olmaqla yanaşı, həm də gələcəyimizə – Azərbaycan gəncliyinin inkişafına verdiyi töhfələrlə daim xatırlanır. ***"Gənclər bizim gələcəyimizdir"***, – deyən böyük dövlət xadiminin Azərbaycan gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli qüvvə kimi formalaşmasındakı rolu danılmazdır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə 2 fevral 1996-cı ildə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi. Bu forum cəmiyyətin inkişafında Azərbaycan gənclərinin rolunun artmasına və məsuliyyətinin yüksəlməsinə, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaratdı, gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaqla yanaşı, eyni zamanda Azərbaycanda könüllülük fəaliyyətinə böyük təkan verdi. Həmçinin Gənclər, İdman və Turizm Nazirliyi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsinə uyğun olaraq 1998-2000-ci illərdən başlayaraq ölkədə könüllülük prinsipləri geniş təbliğ edildi. 1985-ci ilin 5 dekabrında BMT tərəfindən elan olunan Beynəlxalq Könüllülər Günü hər il ölkəmizdə fəaliyyət göstərən könüllü təşkilatlar və könüllülərimiz tərəfindən geniş şəkildə qeyd edilir.

Müasir dövrdə könüllülüyün bir hərəkat kimi geniş vüsət alması, yüksəlişi ölkə Prezidenti cənab İlham Əliyevin adı ilə birbaşa bağlıdır. Ümummilli liderimiz tərəfindən əsası qoyulan ideyaları və siyasəti layiqli şəkildə davam etdirən dövlət başçısı könüllülük hərəkatının formalaşdırılmasında, bu sahədə qanunvericilik bazasının inkişafında böyük rol oynayıb. 2009-cu ildə Şərqi Avropa və MDB məkanında ilk dəfə olaraq məhz Azərbaycanda qəbul edilən "Könüllü fəaliyyət haqqında"




Qanun ictimai və humanitar fəaliyyət üçün mövcud şəraiti daha da yaxşılaşdırıb. Az sonra könüllülük ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə edib, gənclərimizin həyat tərzinə çevrilib. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" tələbə könüllüləri və digər könüllü hərəkatları yaranıb, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşıb. Ölkəmizdə keçirilən Avroviziya mahnı müsabiqəsi, I Avropa oyunları, "Formula 1" yarışları, IV İslam həmrəyliyi oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində könüllülərimiz əvəzsiz rol oynayıblar. Ölkə başçısının gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə 2019-cu il dekabrın 30-da "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında" Sərəncam imzalaması sözügedən sahəyə göstərilən diqqət və qayğının məntiqi nəticəsinin, tarixi könüllülük ənənələrimizə verilən ən yüksək qiymətin təzahürüdür. Onu da qeyd edim ki, Azərbaycanda "Könüllülər ili" ölkəmizin koronavirus pandemiyası ilə mübarizə apardığı bir dövrə təsadüf etdi. Bütün dünyanı bürüyən bu epidemiya bəlası ilə ***"Biz birlikdə güclüyük!"*** deyərək milli həmrəylik nümayiş etdirməklə mübarizə apardıq və aparırıq. Ölkəmizdə tətbiq olunan xüsusi karantin rejimi günlərində könüllülük hərəkatı özünü daha qabarıq şəkildə göstərir. Gənc könüllülər ehtiyacı olan şəxslərə verilən ərzaq bağlamalarının ünvanlara çatdırılmasında, tənha və ahıl vətəndaşlara sosial xidmətlərin göstərilməsində, infeksiyanın yayılmasının qarşısının alınması məqsədilə maarifləndirmə işinin aparılmasında fəal iştirak etməklə dövlətə və dövlətçiliyə sədaqətlərini bir daha nümayiş etdirirlər.

2020-ci il Azərbaycan tarixində daim qürur və iftixarla xatırlayacağımız bir il kimi, xüsusilə yadda qalacaq. Sentyabrın 27-dən torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başlanan Vətən müharibəsində ölkəmiz tarixi Qələbə çaldı. Bu gün üçrəngli ay-ulduzlu bayrağımız əzəli və qədim torpağımız olan Qarabağımızda əbədi dalğalanır. Doğma xalqımızın ən çətin zamanda birlik, bərabərlik nümayiş etdirməsi, qəhrəman ordumuzun, Ali Baş Komandanımızın ətrafında sıx birləşməsi, cənab Prezidentə yazılan yüzlərlə məktublar, ərazi bütövlüyümüz uğrunda insanlarımızın düşmənlə döyüşmək üçün müraciətləri, əsgərlərimizə göndərilən sovqatlar, "Əsgərə məktub"lar və ən əsası Vətən uğrunda canlarından keçməyi gözə alaraq, torpaqlarımızı mənfur düşməndən azad etməyə könüllü yollanaraq şəhid olan igid oğullarımız… Elə düşünürəm ki, ölkəmizdə könüllülüyün belə qürurverici nümunəsi heç vaxt olmayıb. "Könüllülər ili"nə belə şanlı, şərəfli, iftixar dolu səhifələri yazan iradəli, qətiyyətli Ali Baş Komandanımız, mübariz və qürurlu xalqımız, qələbə sevincini bizə yaşadan ordumuz ilə fəxr edirik.

### *Naxçıvanda könüllü olmaq fərqlilikdir*

Tarixin yaşıdı, bəşəriyyətin beşiyi, 2018-ci ildə ölkəmizin "Gənclər paytaxtı" seçilən Naxçıvanda könüllülüyün müxtəlif formaları inkişaf etdirilir. Hər zaman naxçıvanlıların milli və mədəni dəyərlərində, adət-ənənələrində öz əksini tapan könüllülük hərəkatının öncülləri isə muxtar respublikamızın gəncləridir. Qədim diyarımızda könüllülük hərəkatı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamından sonra geniş vüsət alıb. Ötən dövr ərzində könüllülük proqramları çərçivəsində muxtar respublikamızda Gənclər Fondu, Sosial, Gənclər və İdman Nazirliyi, Ekologiya, Ədliyyə, Məhkəmə, Sədərək, Səyyar dövlət qulluğu, Turizm, Nəqliyyat könüllüləri fəaliyyət göstərməyə başlayıb. Müxtəlif platformalarda könüllü olan gənclərimiz səmimilik, ünsiyyətcillik, natiqlik, yeni çağırışlara fəal münasibət, milli və bəşəri dəyərlərə hörmət kimi keyfiyyətlər qazanır, öyrənmək, əlaqələri zənginləşdirmək, uğurlu karyera qurmaq imkanı əldə edir, yaradıcı, təşəbbüskar iş və həyat təcrübəsinə, dünyagörüşə, sosial məsuliyyətə, sağlam düşüncəyə sahib olur, bir sözlə, ictimai həyatda iştirak etməklə özlərini inkişaf etdirirlər.

Diyarımızda könüllülük fəaliyyətinin tətbiqi və genişlənməsində Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun rolunu xüsusi qeyd etmək lazımdır. İlk dəfə geniş miqyasda könüllülük fəaliyyəti həyata keçirən fonda bu gün çox sayda gənc könüllü kimi cəlb olunub və onların sayı hər keçən gün artır. Fondun aidiyyəti qurumlarla birgə həyata keçirdiyi "Səyyar dövlət qulluğu xidməti könüllüləri", "Ekologiya könüllüləri", "Sosial könüllülər" layihələrinin iştirakçısı olan gənc könüllülər vətəndaşların işinin asanlaşdırılmasında təmənnasız olaraq yardım edir, ekoloji maarifləndirmə missiyası aparır, sosial xidmətlərə cəlb olunurlar. Ötən dövr ərzində onların iştirakı ilə həyata keçirilən tədbirlər sırasında "Gənclər paytaxtı" çərçivəsində reallaşanları, şəhər mərkəzindəki ilk irimiqyaslı fləşmobu, "Yer saatı" ekoloji aksiyasını, "Novruz qatarı" layihəsini və "Naxçıvan marafonu"nu, intellektual oyunlar üzrə çoxnövçülük turnirlərini, interaktiv və məlumatlandırıcı fərdi inkişaf təlimlərini və digərlərini nümunə göstərmək olar. Bütün bunlar könüllü gənclərin mənəvi-intellektual potensiallarının artırılmasında, fərdi və peşəkar inkişafında, asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayır. Onu da qeyd edək ki, hər ilin sonunda, Beynəlxalq Könüllülər Günü ərəfəsində müxtəlif könüllülük proqramlarında fəaliyyəti ilə seçilən gənclər mükafatlandırılır. Diyarımızda müxtəlif sahələrdə fəaliyyət göstərən könüllülərlə əlaqələrin daha dinamik və operativ şəkildə qurulmasını təmin edən, cari ildə istifadəyə verilən "Naxçıvan könüllüləri" veb-saytı *(www.naxkonulluleri.nmr.az)* isə "Könüllülər ili"nə ən gözəl töhfədir.

Naxçıvan könüllüləri mövcud pandemiya dövründə də muxtar respublikamızın rayon və kəndlərində yaşayan tənha, sosial qayğıya ehtiyacı olan insanları ziyarət edərək onlara xidmət göstərir, qayğılarını çəkirlər. Eyni zamanda sentyabrın 27-də başlanan və 44 gündə Qələbə qazandığımız şanlı Vətən müharibəsində naxçıvanlılar xüsusi seçildilər. Diyarımızdan yüzlərlə insan, xüsusilə gənclərimiz könüllü olaraq cəbhədə döyüşmək üçün müraciət etdi, dövlət başçımızın ətrafında "dəmir yumruq" kimi birləşdilər. Bu, həmin naxçıvanlılardır ki, ötən əsrin sonlarında muxtar respublikamıza mənfur ermənilərin hücumlarının qarşısında dağ kimi dayandılar, könüllü batalyonların tərkibində sərhəd kəndlərimizi müdafiə edərək torpaqlarımızı erməni işğalından qorudular, ötən əsrin 90-cı illərində könüllü olaraq ümummilli liderimiz Heydər Əliyevin ətrafında sıx birləşərək Azərbaycanın müstəqilliyinə öz layiqli töhfələrini verdilər. Mayasında Vətənə sevgi, məhəbbət olan, heç bir təmənna güdməyən xeyirxah əməldə iştirakdan, Naxçıvan könüllüsü olmaqdan gözəl nə ola bilər ki?

### *Könüllülüyün qayəsi vətənpərvərlikdir*

Tarixin bütün dövrlərində gəncindən yaşlısına kimi xalqımızın nümayəndələri bir olaraq ölkəmiz üçün mühüm işlər görüb könüllü şəkildə müxtəlif proseslərdə iştirak ediblər. Könüllülüyün və birliyin harmoniyası o dövrdə də yağı düşməndən qorunmaq üçün əsas amil olub. Bioqrafik müharibə janrında çəkilən "Babək" filmində Babək Azərbaycanın müdafiəsi üçün ordu formalaşdıran zaman Təbrizdən, Şirvandan, Şamaxıdan, Füzulidən, Naxçıvandan atlı igidlər onun yanına gələrək birgə döyüşəcəklərini deyirlər. Filmdən götürülmüş bu tarixi detal Azərbaycanın qəhrəmanlıq tarixinin könüllülük səhifəsini təşkil edir. Vətəni könüllü müdafiə etmək könüllülər hərəkatının ən yüksək formasıdır. İkinci Dünya müharibəsində, ölkəmizin müstəqilliyi uğrunda mübarizələrdə, Qarabağ uğrunda müharibələrdə, Sədərək döyüşlərində iştirak etmiş könüllülərimizi unutmamalıyıq. Onlar Vətənin müdafiəsi uğrunda igidlik və qəhrəmanlıqla döyüşərək şə-



hidlik zirvəsinə yüksəliblər. Bu gün hər kəsin müqəddəs ziyarət məkanına və müstəqillik simvolumuza çevrilmiş Şəhidlər xiyabanında uyuyan şəhidlərimiz də vaxtilə Vətənin müdafiəsinə könüllü olaraq qalxmışdılar. Şəhid olan könüllülərimizin ruhu qarşısında baş əyirik.

Bu gün ölkəmizin inkişafı üçün can-dildən çalışan, Vətənə sevgisini sözdə deyil, əməldə göstərən gənc könüllülərimiz də eyni ruhun daşıyıcısıdırlar. Müdrik el ağsaqqalımız, ulu Dədə Qorqudun dediyi: *"Torpağın yurd, Vətən olması üçün iki şərt lazımdır. Biri odur ki, torpağı gərək əkib-becərəsən. İkincisi odur ki, gərək onu yağılardan qoruyasan. Torpağı əkib-becərməsən, qorumağa dəyməz. Onu qorumasan, əkib-becərməyə dəyməz"* ifadələri bu gün hamımızın, xüsusilə gənclərimizin fəaliyyətlərində əsas götürdükləri məqamlardan biridir. Həmin gənclər ki, 30 ildir, ermənilər tərəfindən işğal edilən torpaqlarımızı qısa zaman ərzində yağı tapdağından azad etdi, üçrəngli bayrağımızı Cəbrayılda, Füzulidə, Qubadlıda, Zəngilanda, Şuşada, Ağdamda, Kəlbəcərdə, qəhrəmanlıq simvolumuz sayılan Xudafərin körpüsü üzərində əbədi dalğalandırdı. Onların bir çoxu Vətən yolunda son damla qanlarınadək vuruşaraq qəhrəman, şəhid adını qazandılar. Belə mərd oğullarımızın içərisində könüllülərimiz də çox idi. Bu o deməkdir ki, könüllülük həm də hər an Vətəni müdafiəyə hazır olmaqdır.

*Könlün və vicdanın səsi ilə çıxılan bu yol bir vətənpərvərlik məktəbidir. Bu məktəbin nümayəndələri olan Azərbaycan gəncləri çox xoşbəxtdirlər. Çünki onların müəllimi əsrlərin keşməkeşli taleyindən üzüağ çıxan, daim vahid niyyət, sağlam düşüncə, təmənnasız kömək ətrafında birləşən xeyirxah, fədakar, ülvi niyyətli Azərbaycan xalqıdır. Gözün aydın, Qarabağ, anan Azərbaycanın torpağında doğulan, onun böyük xalqının verdiyi nəsihətlərlə böyüyən, yetişən, tərbiyələnən, keçmişin, bu günün, gələcəyin ən böyük zəfərini dadan bir nəsil – müstəqil Azərbaycan gəncləri, Azərbaycan könüllüləri sənin hüzuruna gəlir...*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

***Məqalə "Könüllülük: tarix və müasirlik" mövzusunda keçirilən yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür.***

## İtmişdir

Naxçıvan şəhəri, Z.Həmzəyeva (İstiqlal) küçəsi, bina 117, mənzil 20-də yaşayan Hüseynova Səidə Qaraoğlan qızının adına olan 9382 inventar nömrəli texniki pasport və 26.05.2006-cı il tarixli MH-0000402 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 6-cı küçə (B.Abbasov), 105-ci ünvanda yaşamış Seyidov Mirheydər Mirəli oğlunun adına olan 3577 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 885